## Azərbaycan Kredit Bürosunda informasiya təhlükəsizliyinin idarəolunması SİYASƏTİ

Azərbaycan Kredit Bürosu (Büro) bütün növ informasiyanın konfidensiallığı, bütovlüyü və əlçatanlığının idarəetmə sisteminin praktikasında kritik rol oynadığını, həmçinin məlumatın təhlükəsizliyinin təmin edilməməsinin hansı nəticələrə səbəb olacağını bilir və müvafiq təhlükəsizlik tədbirlərini mütəmadi həyata keçirir.

Büronun informasiya təhlükəsizliyinin idarəolunması məsələsinə yanaşması və ümumilikdə informasiya təhlükəsizliyinin mühafizəsi üçün prinsip və məsuliyyətləri bu sənəddə icmal formada qeyd edilmişdir.

Büro İSO/EİC 27001 standartının tələblərindən irəli gələn bütün məsələləri nəzarətdə saxlayır, onlara uyğunluğu təmin etmək məqsədilə müvafiq addımlar atır, daxildəki İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemini (İTİS) həmin standartın tələblərinə uyğun təşkil edir, əməliyyatları icra edir, icra zamanı proseslərə baxış keçirir, nəticələri ölçür və mütəmadi inkişafı təmin etmək məqsədilə xüsusi səylər göstərir.

Büro fəaliyyəti ərzində:

- proseslərin effektiv, dəqiq, sürətli və təhlükəsiz qaydada icrasını təmin edir;
- fərdi məlumatların qorunmasını təmin edir;
- biznes tərəfdaşlarının, müştərilərinin, məlumat təchizatçılarının, Büro əməkdaşlarının fərdi məlumatlarının qorunması zamanı məxfilik, bütövlük və əlçatanlıq prinsipləri üzrə risklərini yüksək səviyyədə idarə edir;
- informasiya təhlükəsizliyi idarəetmə sistemi və təhlükəsizliyi ilə bağlı maarifləndirmə işini korporativ mədəniyyətin bir hissəsinə çevirmək üçün daimi səylər göstərir;
- biznesin davamlılığını təmin etmək məqsədilə lazım olan planın qurulması, testi və icrasını təşkil edir və optimallaşdırır;
- maraqlı tərəflərlə, dövlət qurumları ilə, öz müştəriləri ilə mütəmadi əlaqə qurur və qarşılıqlı faydalı layihələrin icrasını təmin edir.

**Baş direktor**
**Elçin Həbibov**